# POETİK DÜŞÜNCƏNİN PALİTRASI

## Şair dostum Əliməmməd Ağazadənin 60 illiyinə

### *Söz şairin daxili aləmidir*

**Kamil iman sahibi, yüksək erudisiya, təfəkkürə və şairlik qabiliyyətinə malik dostum Əliməmməd Ağazadənin 60 illiyi şərəfinə bu yazımı qələmə aldım. Düşünürəm ki, indi onun bir xoş sözə, kəlama daha çox ehtiyacı var. Hər batan günəş ömrümüzdən bir gün aparır. Şairin yaşaması, doğuluşu o ruhani aləminə, İlahi eşqə qovuşmasından sonra başlanır. Onu yaşadan nəfəsinin, gözlərinin nurunun, idrakının hopduğu, qələmin dan yerinə bənzəyən kağıza həkk elədiyi misralardır...**

Mən bu qeydləri edərkən Əliməmmədin poetik düşüncə palitrasını oxucunun diqqətinə çatdırmaq qənaətinə gəldim. O, sözün nazını çəkdiyi üçün söz də ona başucalığı gətirib, geniş auditoriyaya tanıdıb. Çünki Mövlanə demişkən: "Hər dəfə ağzınızı açanda, başqaları oradan içinizi görür". Bu mənada Əliməmməd həmişə-istər şeirlərində, istərsə də publisistik yazılarında nəyi və necə deməyi lazım olduğuna diqqət yetirib. O, şair kimi söz demək, şair kimi tanınmaq missiyasına ötəri həvəs kimi baxmayıb: bir sənətkar kimi əsərləri yaşadığı ölkənin hüdudlarından kənara çıxıb, bəşəri mahiyyət daşıyıb.

**Şirin sözlə arzum gülər üzümə,**
**Sığınmışam polad səbrə, dözümə.**
**Şair nəsli düşər mənim üzümə,**
**Bilsə əzəməti sözdən almışam.**

**Sözü kölgədə qoyur bəzən ulu günəşi,**
**Alovludur, güclüdür qəlbindəki atəşi.**
**Haqqa arxa çevirməz, fəqət sayılsa nəsi,**
**Etməzlər ulu sözə xəyanəti şairlər.**

Əliməmməd Ağazadənin yazdığı misralar oxucunu özünə çəkir, onun düşüncəsinə və davranışına təsir edir. Nəzmə çəkdiyi hər bir şeir, misra onun daxili aləminin taleyinin, hiss və düşüncələrinin barametridir, inikasıdır. İnsan bədən və ruhdan ibarət olduğu kimi, kəlam da söz və mənadan ibarətdir. Söz bir sədəfsə, məna o sədəfdəki incidir. O da söz aləmində dürr və sədəf axtarır.



Dahi Sokrat deyib: "Sözü ən çox əzizləyən şairlərdir".

Şairin qəlbini oynadan hər bir söz sətirlərdə ulduzlar kimi sayrışır. Söz Əliməmməd Ağazadənin şairlik səviyyəsinin, əzəmətinin meyarıdır...

### *Təbiətin poetik təsviri*

Əliməmməd Ağazadənin yaradıcılığını müşahidə edərkən onun şeirlərində və poemalarında ("Dicodan başlanan ömür yolları", "Kərbəla təəssüratları-eşq səfəri") milli-mənəvi dəyərlər, yurd, vətən torpağı sadə insanların istək və arzuları, sevgi-məhəbbət, vətənpərvərlik duyğuları, ümumbəşəri hisslər, haqqa-ədalətə tapınmaq, həqiqəti həmişə uca tutmaq, Allaha etiqad göstərmək bütövlüyə çağırış başlıca yer tutur.

Poeziyasında mərkəzi yerlərdən birini təbiət mövzusu tutur və burada təbiət təsviri daha geniş mənəvi anlam daşıyaraq həm də insanın təbiətini əks etdirir. Şairin şeirlərində təbiətin ecazkar gözəlliyi, insanlarla təbiət arasındakı bağlılıq məharətlə əlaqələndirilir, onun tərbiyəedici xüsusiyyəti önə çəkilir, bəzən də gözlərimizin önündə gözəl bir lövhə canlanır:

**Yanan tonqallarda köz çiçəkləyir,**
**Alışır lalə tək üz çiçəkləyir.**
**Çəmən yaşıllaşır, düz çiçəkləyir,**
**Haraylayır bahar, haylanır bahar.**

Əliməmməd Ağazadənin poetik nümunələrində təbiət təsviri daha çox nəzərə çarpır. O, eyni zamanda insanın təbiətə qarşı çıxmasını görür, bunun faciəli sonluqla bitəcəyi barədə həyəcan təbili çalır, təbiətin ali varlığı, həyatın əşrəfi olan insana deyir ki, sən təbiəti qoru, o da sənin qoruyucun olsun, yoxsa onun intiqamı yaman olar.

### *Əsgərləri mübarizəyə səsləyir*

Şair dostumun dərin müşahidə qabiliyyəti var. Onun şeirlərində sadəlikdə dərin məna, müdriklik ovqatı hiss olunur. Vətənpərvərlik duyğularının özünəməxsus ifadəsi, döyüşkən ruhu, bəddi-fəlsəfi ifadəsi xoş təsir bağışlayır.

O, ətrafda baş verən hadisələrə həssas münasibət göstərir, əhəmiyyətli mövzuları qələmə alır. Bu da təbiidir.

İndiki dövrdə Qarabağ ağrısı, yurd həsrəti, didərgin harayı, şəhidlik şairləri daha çox narahat eləyən mövzuların ön sırasındadır.

Əliməmməd Ağazadənin bədii yaradıcılığında Qarabağ mövzusu başlıca yer tutur. O, torpaqlarımızın bir qisminin işğalı ilə heç cür barışmır, bu onun qəlbini sıxır, vətən oğullarını - ordumuzun əsgər və zabitlərini, hər bir gənc vətənpərvəri mübarizəyə, savaşa səsləyir:

**Sənə arxalanıb gəzirik rahat,**
**Bizdən sən kədəri, qəmi qopar, at.**
**Sən bizdə bir daha əminlik yarat,**
**Gəl ey şücaətli, qəhrəman əsgər!**

"Qarabağ" adlı on iki bəndlik şeirində şair yazır:

**Sağalmaz bu yaram mənim,**
**Dözülməzdi vətən dağı.**
**Sevinc dolu arzumuzu,**
**Ayaq altda əzir yağı.**

Lakin "Azərbaycan" şeirində təskinlik tapır ki, gec-tez Azərbaycan düşmən üzərində qələbə çalacaq, doğma torpaqda düşmənə yer qalmayacaq:

**Düşmənlərin basılacaq,**
**Ucalacaq haqqın səsi.**
**Tarixlərə yazılacaq,**
**Azərbaycan qələbəsi.**

**Hər çınqıla, hər bir daşa,**
**Çilənib şəhidin qanı.**
**Ey vətən, əbədi yaşa,**
**Heyrətə sal bu dünyanı.**
**"Ey vətən, əbədi yaşa"**

Şairin Qarabağa, şanlı əsgərlərimizə həsr elədiyi şeirlər barədə daha geniş fikir söyləmək olar. O, bu yazılarda özü də sanki əsgərlərimizə qoşulub səngərdə keşik çəkir, hər an düşməni məhv etməyə hazırdır.

### *Yazıya sonluq*

Əliməmmədin yaradıcılığı, qələmə aldığı mövzular, onu narahat eləyən, düşündürən problemlər bütövlükdə tədqiqat mövzusudur. Şair milli-əxlaqi dəyərlərimizə çoxlu şeir həsr etmişdir. Onun Kərbəla səfəri barədə çap etdiyi "Kərbəla təəssüratları - eşq səfəri" kitab-poeması dediyimizə misaldır. Bu kitab haqqında ayrıca söz açmağa dəyər.

Əliməmməd Ağazadə müasir dövrün çətinliyinə baxmayaraq səkkiz ildir ki, "Məsəl" ədəbi-bədii, elmi-publisistik jurnalı yaşadır, bölgədə çap oluna bilməyən yazarlara yaşıl işıq yandırır...

O bölgədə poeziyamızı, nəsrimizi, publisistikamızı yaşıdır. O, şair-redaktor kimi missiyasını yerinə yetirməklə, özü də yaşayır və yaşadır!

İndiki informasiya, qəzet, jurnal kitab, televiziya, virtual mətbuatın bolluğu şəraitində bəzən adama elə gəlir ki, artıq deyiləsi yeni söz tükənib. Ancaq Əliməmməd kimi istedadlı şair-publisistin müxtəlif janrlı yazılarını oxuduqdan sonra fikrimizdən dönürük.

**Yox, hələ deyiləsi yeni söz tükənməyib, deməli, yazmaq lazımdır və o yazır...**
**Qələminə qüvvət!**

**İdris Şükürlü,**
**Azərbaycanın Əməkdar jurnalisti,**
**yazıçı-publisist**